# Dövlət müstəqilliyimizin bərpasının iyirmi beşinci ildönümü təhsil müəssisələrində qeyd olunub

## Bakı Dövlət Universitetində



Bakı Dövlət Universitetində Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü münasibətilə tədbir keçirilib. Universitetin professor-müəllim heyəti və tələbələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan rektor, akademik Abel Məhərrəmov XX əsrin Azərbaycan xalqının həyatında çox böyük mübarizələr əsri olduğunu, müstəqil dövlətimizin qurulduğunu, 1991-ci ilin 18 oktyabrında yenidən əldə etdiyimiz müstəqilliyin bu mübarizələrin məntiqi nəticəsi kimi tarixə düşdüyünü deyib. Rektor ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının tarixinə müstəqilliyin memarı və qurucusu kimi daxil olduğunu, ulu öndərin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, doğma vətənə olan qayğısı nəticəsində müstəqillik tarixinin əbədiləşdiyini qeyd edib.

Prezident İlham Əliyevin dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü münasibətilə keçirilən tədbirdə səsləndirdiyi fikirlərə toxunan rektor, öz növbəsində, bu illər ərzində ölkəmizin bütün istiqamətlər üzrə çox böyük uğurlara imza atmasından, Azərbaycanın dünyanın aparıcı ölkələrindən birinə çevrilməsindən də bəhs edib.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası icra katibinin müavini Mübariz Qurbanlı isə bildirib ki, ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın təməl prinsiplərini formalaşdırıb, Azərbaycan xalqı və dövləti üçün misilsiz xidmətlər göstərib. Bu gün Prezident İlham Əliyevin yorulmaz, çoxşaxəli və zəngin fəaliyyəti Azərbaycanı sürətli inkişaf yoluna çıxarıb və şübhə yoxdur ki, yaxın illərdə ölkəmiz dünyanın ən güclü dövlətlərindən birinə çevriləcəkdir.

Tədbir müstəqilliyin şərəfli yollarını əks etdirən filmin nümayişindən sonra başa çatıb.

## Azərbaycan Dövlət Neft və Sənaye Universitetində



Oktyabrın 18-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Azərbaycanın Dövlət Müstəqilliyinin bərpasının 25 illiyinə həsr olunan tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan ADNSU-nun rektoru, professor Mustafa Babanlı Müstəqillik Günü münasibətilə hər kəsi təbrik edərək 18 oktyabrın iftixar günü olduğunu bildirib. Azərbaycanın müstəqillik yolunda keçdiyi şərəfli tarixindən danışan professor Mustafa Babanlı bu tarixdə dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin oynadığı önəmli rolu qeyd edib:

"Müstəqillik alın yazısı deyil, müstəqillik üçün qan töküb, ona çatmayanlar da var. Amma Azərbaycan öz müstəqilliyini qazanmağı və onu qoruyub saxlamağı bacardı. Müstəqillik elan olunduqdan sonrakı dövrü ölkəmizin həyatında siyasi sabitlik və inkişaf dövrü hesab etmək olar. Bütün bunlar isə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır", - deyə rektor bildirib.

Bu gün də siyasi sabitliyi qoruyub saxlamağın və müstəqil ölkə kimi siyasət yürütməyin heç də asan iş olmadığını deyən rektor M.Babanlı bunların Prezident İlham Əliyevin uğurlu siyasi strategiyasının nəticəsi olduğunu qeyd edib.

Müstəqilliyin hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyi olduğunu bildirən rektor Mustafa Babanlı bu illər ərzində ölkəmizin qazandığı uğurlardan söz açıb.

Rektor, professor M.Babanlı çıxışının sonunda Müstəqillik Günü münasibətilə bütün Azərbaycan vətəndaşlarını təbrik edib.

Daha sonra çıxış üçün millət vəkili, professor Hüseynbala Mirələmova söz verilib. Millət vəkili müstəqilliyin yaranmasından, o vaxtkı tarixi hadisələrdən və bu proseslərdə ulu öndər Heydər Əliyevin oynadığı əvəzsiz roldan danışıb.

## Azərbaycan Dövlət Pedaqoji Universitetində



Oktyabrın 18-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Azərbaycanın dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümünə həsr edilmiş tədbir keçirilib.

ADPU-nun rektoru, professor Cəfər Cəfərov tədbiri giriş sözü ilə açaraq hamını bu mühüm və əlamətdar tarixi gün münasibətilə təbrik edib.

Rektor qeyd edib ki, 1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı» qəbul edildi. Bu Aktın qəbul edilməsi mühüm tarixi-siyasi hadisə idi və həmin gün tariximizə dövlət müstəqilliyimizin bərpası günü kimi daxil oldu. Yeni yaranan müstəqil Azərbaycan dövləti özünün Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olduğunu bəyan edərək onun bayrağını, gerbini, himnini dövlət atributları kimi qəbul etdi.

Lakin həmin dövrdə Azərbaycanın müstəqilliyi formal xarakter daşıyırdı. İctimai-siyasi həyatda, iqtisadiyyatda hərc-mərclik, özbaşınalıq hökm sürürdü. Yalnız ümummilli liderimiz Heydər Əliyev 1993-cü ilin iyununda xalqımızın tələbi ilə yenidən respublikamızda hakimiyyətə qayıtdıqdan sonra öz böyük siyasi uzaqgörənliyi, zəngin idarəçilik və dövlətçilik təcrübəsi sayəsində ölkəmizin formal, nominal müstəqilliyinin həqiqi müstəqilliyə, faktiki müstəqilliyə çevrilməsini təmin etdi, ölkədə müasir dünyamızın reallıqlarını nəzərə alan yeni siyasi kurs formalaşdı.

Böyük qürur hissi ilə deyə bilərik ki, ulu öndərimiz Heydər Əliyevin elmi əsaslara söykənən müdrik siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev həyatımızın bütün sahələrinin sürətli inkişafını təmin etmişdir.

Tədbirdə Türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası kafedrasının professoru Mais Əmrahov "Əsrə bərabər iyirmi beş il. Tarixi yolun mərhələləri" mövzusunda məruzə, həmin kafedranın müəllimi Taleh Cəfərov "Müstəqillik illərində vətəndaş cəmiyyəti quruculuğu", ADPU-nun doktorantı Xalidə İbrahimova isə "ADPU müstəqillik illərində" mövzularında çıxışlar ediblər.

## Gəncə Dövlət Universitetində



Oktyabrın 18-də Gəncə Dövlət Universitetində Müstəqillik Günü münasibətilə tədbir keçirilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra universitetin rektoru, professor Yusif Yusibov tədbiri açaraq 18 oktyabrın Azərbaycan tarixinin ən mühüm günlərindən biri olduğunu qeyd edib. 1991-ci il məhz oktyabrın 18-də tarixi sənəd - Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul olunduğunu söyləyən rektor həmin sənəddə müstəqil Azərbaycan dövlətinin 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olduğunun göstərildiyini bildirib. Qeyd olunub ki, 1993-cü ildə ölkəmizdə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra ulu öndər Heydər Əliyev Azərbaycan müstəqilliyini əbədi və dönməz edib. Məhz ümummilli liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini bütün təhlükələrdən qoruyub. Ulu öndər ilk növbədə ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı, yenicə müstəqillik qazanmış Azərbaycan Respublikasını yeni inkişaf xəttinə yönəltdi. Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündən eşidildi. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu.

Tədbirdə ali təhsil ocağının humanitar məsələlər üzrə prorektoru, dosent Gülsüm Fətəliyeva, ümumi tarix kafedrasının professoru Həsənbala Sadıqov, dosent Hüseyn Bəxtiyarov və başqaları çıxış edərək xalqımızın müstəqillik yolunda mübarizəsindən, müstəqilliyin bərpasından sonra Azərbaycanın bütün sahələrdə inkişafı, beynəlxalq aləmdə özünəməxsus nüfuz qazanmasında ulu öndər Heydər Əliyevin tarixi rolundan danışıblar.

## Azərbaycan Dillər Universitetində



Oktyabrın 17-də Azərbaycan Dillər Universitetində (ADU) universitetin təşkilatçılığı ilə Azərbaycan Dövlət Müstəqilliyinin bərpasının 25 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirildi.

Tədbirdən öncə iştirakçılar ümummilli lider Heydər Əliyevin universitetdəki büstünü ziyarət edərək önünə tər gül dəstələri qoydular.

Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayan konfransda ADU-nun rektoru vəzifəsini icra edən professor Dünyamin Yunusov qonaqları salamlayaraq onları universitetdə görməkdən məmnun olduğunu bildirdi. "Azərbaycan Respublikası artıq 25 ildir ki, azad bir ölkədir" deyən Dünyamin Yunusov dövlətimizin tam müstəqilliyini əldə etməsi üçün xalqımızın çətin yollardan keçdiyini, bu çətinliklərin aradan qaldırılmasında ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin titanik fəaliyyətlərini xüsusi qeyd etdi.

ADU-nun tədris işləri üzrə prorektoru, professor Əfqan Abdullayev "Müstəqillik illərində təhsilimizin inkişafı" mövzusunda təqdimatla çıxış etdi. O, Azərbaycan müstəqil olduqdan sonra təhsildə əldə olunan nailiyyətlərin ümummilli lider Heydər Əliyevin və onun ideyalarını hər sahədə olduğu kimi, təhsil sahəsində də müvəffəqiyyətlə həyata keçirən Prezident İlham Əliyevin adı ilə bağlı olduğunu söylədi.

ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının professoru Adil Babayev, sosial elmlər kafedrasının professoru Xanməmməd İbrahimov və həmin kafedranın dosenti Qorxmaz Mustafayev çıxışlarında ölkəmizin müstəqillik uğrunda mübarizə yolundan bəhs etdilər.

Sonda şair Vahid Əlioğlunun müstəqilliyimizə həsr olunan "Döyünən ürəyim-Azərbaycanım" adlı şeiri pedaqoji (ingilis dili-fransız dili) fakültənin tələbəsi Günel Cəfərova tərəfindən səsləndirildi.

## Mingəçevir Dövlət Universitetində



MDU-da Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpa edilməsinin 25-ci ildönümünə həsr olunmuş "Ən böyük nailiyyətimiz müstəqilliyimizdir" mövzusunda elmi-nəzəri konfrans keçirilib. Konfransı giriş sözü ilə açan Mingəçevir Dövlət Universitetinin tərbiyə işləri üzrə prorektoru, dosent Rövşən Əliyev tədbir iştirakçılarını rəhbərlik adından salamlayıb. Rövşən Əliyev kollektivi bu əlamətdar gün münasibətilə təbrik edərək bildirib ki, Azərbaycan xalqının əldə etdiyi ən böyük tarixi nailiyyət onun müstəqilliyidir. Xalqımız müstəqilliyini qazandıqdan sonra onu itirmək təhlükəsi ilə üzləşdi. Lakin xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin siyasi təcrübəsi nəticəsində biz müstəqilliyimizi qoruyub saxlaya bildik.

Prorektor Rövşən Əliyev qeyd edib ki, ulu öndərin layiqli siyasi varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında bu gün də müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir.

Tədbirdə universitetin humanitar fənlər kafedrasının baş müəllimi İlham Məmmədov "Müstəqilliyə aparan yol: etnik-siyasi birlik və müstəqillik ənənələri", pedaqoji fakültənin IV kurs tələbəsi Günel İbrahimli "Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir", iqtisadiyyat və idarəetmə fakültəsinin I kurs tələbəsi Süleyman Qənbərov "Azərbaycan Respublikasının siyasi müstəqilliyi tarixi zərurətdir", pedaqogika və psixologiya kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru Nizami Zeynalov "Müstəqil Azərbaycanın 25 illik inkişaf modeli: milli təcrübə" mövzularında çıxış ediblər.

Konfransda müstəqillik gününə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirin sonunda pedaqoji fakültənin IV kurs tələbələri "Ürəklərdə döyünən Azərbaycan" adlı kompozisiyanı konfrans iştirakçılarına təqdim ediblər.